DOI: doi.org/10.61226/12.2.2023/20252.9
UOT: 613
Şəmşad ƏLİZADƏ
Azərbaycan Turizm və Menecment Universiteti,
iqtisad üzrə fəlsəfə doktoru
Shamo.88@mail.ru
https://orcid.org/0000-0003-2284-3693

Nicat NOVRUZOV
Azərbaycan Turizm və Menecment Universiteti,
müəllim
nicat.novruzov@atmu.edu.az
https://orcid.org/0000-0002-7636-0112

TURİZMİN MALİYYƏLƏŞDİRİLMƏSİNDƏ BANK SEKTORUNUN ROLU

Xülasə: Müasir dövrdə turizm sektorunun inkişafını təmin edən əsas amillərdən biri bu sektorun effektiv maliyyələşdirilməsi məsələsidir. Bu sahədə bankların rolunu xüsusilə vurğulamaq lazımdır. Doğrudur, banklar turizm sektorunun maliyyələşdirilməsində iştirak edərək, bu sahədə fəaliyyət göstərən şirkətlərə kreditlər verir. Lakin biznes krediti altında verilən bu kreditlərin faizi yüksək olduğundan bir çox turizm şirkətləri əldə etdiyi krediti qaytarmaqda çətinlik çəkir. Banklar turizm sektorunun kreditləşdirilməsində böyük əhəmiyyətə malik olsalar da, bu sektorun inkişaf potensialını və perspektivini nəzərə alaraq bu sahədə fəaliyyət göstərən sahibkarlara dövlət dəstəyi ilə aşağı faizli uzun müddətli kreditlərin verilməsi təmin edilməlidir. Yəni turizmin maliyyələşdirilməsində bank sektorunun rolu və əhəmiyyəti dövlətin dəstəyi ilə yüksəldilməlidir. Bu məsələləri nəzərə alaraq qeyd etmək lazımdır ki, turizmin maliyyələşdirilməsində bank sektorunun əhəmiyyətini ortaya qoymaq və onun başlıca istiqamətlərini müəyyən etmək müasir dövrdə ən aktual məsələlərdən biri hesab olunur.
Açar sözlər: turizm sektoru, bank sektoru, maliyyələşdirilmə, Azərbaycan, kreditlər

Shamshad ALIZADE, Nijat NOVRUZOV

THE ROLE OF THE BANKING SECTOR IN TOURISM FINANCING

Abstract: One of the main factors ensuring the development of the tourism sector in modern period is the issue of effective financing of this sector. The role of banks in this field should be particularly emphasized. It is true that banks participate in financing the tourism sector and provide loans to companies operating in this field. However, due to the high interest rates of these loans granted under business loans, many tourism companies have difficulty repaying the loans they have obtained. Although banks play a major role in lending to the tourism sector, taking into account the development potential and prospects of this sector, it is necessary to provide low-interest long-term loans with state support to entrepreneurs operating in this field. In other words, the role and importance of the banking sector in financing tourism should be increased with the support of the state. Considering these issues, it should be noted that highlighting the importance of the banking sector in financing tourism and determining its main directions is considered one of the most urgent issues in the modern period.
Keywords: tourism sector, banking sector, financing, Azerbaijan, loans

Шамшад АЛИЗАДЕ, Ниджат НОВРУЗОВ

РОЛЬ БАНКОВСКОГО СЕКТОРА В ФИНАНСИРОВАНИИ ТУРИЗМА

Абстракт: Одним из основных факторов, обеспечивающих развитие сферы туризма в современных условиях, является вопрос эффективного финансирования этой сферы. Особо следует подчеркнуть роль банков в этой сферы. Действительно, банки участвуют в финансировании туристического сектора и предоставляют кредиты компаниям действующим в этой сфере. Однако из-за высоких процентных ставок по этим кредитам, выдаваемым в рамках бизнес-кредитов, многие туристические компании испытывают трудности с погашением полученных кредитов. Хотя банки играют большую роль в кредитовании туристической сферы, учитывая потенциал и перспективы развития этой сферы, необходимо предоставлять предпринимателям, работающим в этой сфере, долгосрочные кредиты под низкие проценты с государственной поддержкой. Другими словами, роль и значение банковского сектора в финансировании туризма должны быть повышены при поддержке государства. Рассматривая данные вопросы, следует отметить, что выделение значения банковского сектора в финансировании туризма и определение его основных направлений считается одним из наиболее актуальных вопросов в современный период.

Ключевые слова: туристический сектор, банковский сектор, финансирование, Азербайджан, кредиты

Giriş

Məlum olduğu kimi turizm Azərbaycanda iqtisadiyyatın ən perspektivli sektorlarından biridir. Təsadüfi deyil ki, Azərbaycanda bu sektor günü-gündən inkişaf edir. Azərbaycanda turizm sektorunun inkişafı müxtəlif amillərdən asılıdır. Birincisi, ölkənin yerləşdiyi əlverişli coğrafi mövqe bu sektorun inkişafında əsas amillərdən biri sayılır. Digər tərəfdən Azərbaycanın gözoxşayan təbiəti, gözəl iqlimi turizm sektorunun inkişafına təkan verir.

Ölkəmizin zəngin mədəniyyəti, o cümlədən xalqımızın qonaqpərvərliyi turizmin perspektivli və potensial bir sektora çevrilməsinə təsir göstərir. Müasir dövrdə turizm sektorunun inkişafının təmin edilməsi bir sıra amillərdən asılıdır. Əvvəla dövlət turizm sektorunda sahibkarlıq fəaliyyətinin inkişafını təşviq etməlidir. Dövlət tərəfindən bu sahədə azad rəqabət mühiti formalaşdırılmalıdır. Digər tərəfdən turizm sektorunun inkişafının təmin olunması üçün bu sahəyə maraq göstərən istər yerli, istərsə də xarici investorların cəlb edilməsi reallaşdırılmalıdır.

Turizm sektorunun inkişafını təmin edən əsas amillərdən biri də bu sektorun effektiv maliyyələşdirilməsi məsələsidir. Bu sahədə bankların rolunu xüsusilə qeyd etmək lazımdır. Son dövrlər bir çox sahədə problemlər ortaya çıxdığı kimi, turizm sektorunda da bu problemləri müşahidə etmək mümkündür. Bu problemlərdən biri turizm sektorunda fəaliyyət göstərən şirkətlərin bir çoxunda maliyyə resurslarının çatışmazlığıdır.

Qeyd etmək lazımdır ki, banklar turizm sektorunun maliyyələşdirilməsində aktiv iştirak edərək, bu sahədə fəaliyyət göstərən şirkətlərə kreditlər verir. Ancaq biznes krediti adı altında verilən bu kreditlərin faizi yüksək olduğundan, bir çox turizm şirkətləri bu vəsaiti geri ödəməkdə çətinlik çəkir. Banklar turizm sektorunun kreditləşdirilməsində böyük əhəmiyyətə malik olsalar da, turizmin inkişaf perspektivini nəzərə alaraq bu sahədə fəaliyyət göstərən sahibkarlara dövlət dəstəyi ilə aşağı faizli uzun müddətli kreditlərin verilməsi təmin edilməlidir. Bu məsələləri nəzərə alaraq qeyd etmək lazımdır ki, turizmin maliyyələşdirilməsində bank sektorunun rolunu ortaya qoymaq müasir dövrdə ən aktual məsələlərdən biri sayılır.

1.1. Azərbaycanda turizm sektorunun maliyyələşdirilməsinin iqtisadi əhəmiyyəti

Turizm sektoru Azərbaycanda ən əhəmiyyətli sahələrdən biri olmaqla ildən ilə inkişaf etməkdədir. Azərbaycanda turizm sektorunun effektiv inkişafı iqtisadiyyatın investisiya fəaliyyətinin aktivləşdiyi, yeni iş yerlərinin açıldığı, vəsaitlərin dövriyyəsinin genişləndiyi

iqtisadiyyatın digər sahələrinə də böyük təsir göstərir. Elə bu səbəbdən turizm sektorunun inkişafı iqtisadiyyatın sosial və iqtisadi cəhətdən inkişafı ilə nəticələnir [2, s.11].

Ümumiyyətlə istənilən sektorun inkişafının təmin edilməsi göründüyü kimi asan məsələ deyil. Bu sahədə kifayət qədər maneələr və problemlər ortaya çıxır. Müasir dövrdə turizm sektorunun inkişafının təmin edilməsi aktual məsələlərdən biri olsa da, burada da müəyyən problemlər müşahidə olunur. Turizm sektorunda son dövrlər ortaya çıxan problemlərdən biri bu sektorun maliyyələşdirilməsi məsələsidir. Bu baxımdan turizm sektorunun effektiv maliyyələşdirilməsi məsələsi də öz növbəsində aktual və əhəmiyyətli məsələlərdən biri sayılır.

Müasir dövrdə turizm sektorunun maliyyələşdirilməsi mənbələrinin müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir. Bu məsələ istər şirkət səviyyəsində, istərsə də dövlət səviyyəsində reallaşdırılır. Qeyd edək ki, turizm sektorunun maliyyələşdirilməsi bir neçə mənbədən ibarət ola bilər. Bu mənbələrə, turizm şirkətlərinin şəxsi kapitalını, onların sərəncamında qalan xalis mənfəəti, banklardan və maliyyə təşkilatlarından cəlb edilmiş kreditləri, turizm fəaliyyəti nəticəsində turistlərin etdikləri ödənişləri, o cümlədən dövlət orqanlarının nəzarəti altında ayrılmış dotasiyaları aid edə bilərik [3, s.25].

Turizm sektorunun maliyyələşdirilməsində biz əsas 2 amili qeyd edə bilərik. Bu amillərdən biri turizm sektorunun maliyyələşdirilməsinin dövlət tərəfindən reallaşdırılması, digəri isə bu maliyyələşdirilmənin turizm şirkətlərinin maliyyə resurslarını səfərbər etməsi hesabına təmin edilməsidir. Turizm müəssisələrinin maliyyə resursları müxtəlifdir. Biz bu maliyyə resurslarını 2 qrupa ayıra bilərik: Xüsusi maliyyə resursları və borcalınmış maliyyə resursları. Xüsusi maliyyə resursları da öz növbəsində 2 yerə bölünür. Xüsusi daxili maliyyə resursları və xüsusi xarici maliyyə resursları. Nizamnamə kapitalı formalaşdıqda təsisçilərdən daxilolmalar, sərəncamda qalan mənfəət, əsas vəsaitlər üçün yığılmış amortizasiya ayırmaları xüsusi daxili maliyyə resurslarına aid edilir. Nizamnamə kapitalının əlavə üzv haqqı, əlavə emissiya və yerləşdirilmiş qiymətli kağızlardan daxil olan vəsait, yenidənbölgü nəticəsində daxil olmuş vəsait və büdcədən ayrılmış əvəzsiz vəsaitlər isə xüsusi xarici maliyyə resurslarına aid edilir.

Banklardan və ya maliyyə təşkilatlarından alınmış uzun və qısamüddətli kreditlər, istiqrazların buraxılışından daxilolmalar və büdcədən dotasiya şəklində alınmış vəsaitlər isə borcalınmış maliyyə resurslarına aid edilir [1, s.59]

Dünya təcrübəsi sübut edir ki, istənilən sektorun inkişafının təmin edilməsində dövlət dəstəyi danılmaz amildir. Bu baxımdan hər bir ölkədə olduğu kimi, Azərbaycanda da turizm sektorunun maliyyələşdirilməsində dövlət dəstəyi mühüm əhəmiyyət kəsb edir. Bəzi görüləcək tədbirlər təbii ki, turizm sektorunun inkişafını reallaşdıra bilər. Belə ki, turizmin dövlət tərəfindən prioritet bir sektor olaraq hesab olunmasını nəzərə alaraq turizm şirkətlərinə dövlət tərəfindəm vergi güzəştlərinin tətbiq edilməsi, aşağı faizli uzunmüddətli sahibkarlıq kreditlərinin banklar tərəfindən verilməsinin təmin edilməsi, dövlət subsidiyalarının bu sektora yönəldilməsi turizm sektorunun inkişafını təmin edə bilər. Ancaq hazırda bazar iqtisadiyatı şəraitində maliyyə resurslarının məhdud olmasına görə maliyyələşdirilmə prosesləri həm dövlət, həm də korporativ səviyyədə müvafiq idarəetmə və tənzimləmə tələb edir.

Azərbaycan Respublikası prezidenti cənab İlham Əliyevin 6 dekabr 2016-cı il tarixli sərəncamı ilə qəbul edilmiş "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"-nə əsasən ümumilikdə turizm şirkətlərinin maliyyələşdirmə formalarına büdcədənkənar təxsisatlar, sahibkarlığın inkişaf fondunun vəsaitləri, dövlət gəlirləri, bələdiyyə büdcələri, yerli və xarici investisiyalar, qrantlar, bank kreditləri və beynəlxalq maliyyə təşkilatlarının kreditləri aid edilir [4].

Məlumdur ki, turizm sektorunun effektiv maliyyələşdirilməsi Azərbaycanda məşğulluğun təmin edilməsinə, turizm şirkətlərinin rentabelliyinin, ödəmə və rəqabət qabiliyyətinin yüksəlməsinə, iqtisadi artımın təmin edilməsinə səbəb olur. Bundan əlavə turizmin doğru zamanda və tam şəkildə maliyyələşdirilməsi bu sektorun cəlbediciliyini yüksəldir ki, bu da xarici investorların məhz turizm sektoruna investisiya qoyma ehtimalını daha da yüksəldir.

Ölkəmizdə turizm potensialının yüksək olduğunu nəzərə alaraq, bu sektorun effektiv maliyyələşdirilməsinin ölkənin iqtisadi inkişafını təmin edən mühüm amillərdən biri olmasını vurğulaya bilərik. Məhz bu səbəbdən Azərbaycan iqtisadiyyatının başlıca inkişaf istiqamətlərindən biri olaraq turizmin inkişafına istiqamətlənən maliyyə resurslarının artırılması

və bu vəsaitlər sayəsində turizm sektorunun iqtisadi inkişafda rolunun yüksəldilməsi dövlətin qarşıya qoyduğu əhəmiyyətli hədəflərdən və aktual məsələlərindən biri sayılır [6].

1.2. Turizmin maliyyələşdirilməsində bankların rolu

Müasir iqtisadi mühitdə turizm sektorunun maliyyələşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Maliyyə resurslarının zamanında və tam şəkildə cəlb edilməsi turizm sektorunun maliyyələşdirilməsində əsas amillərdən biri hesab olunur. Məlum olduğu kimi, turizm sektorunun maliyyələşdirilməsi zamanı bəzi amillər nəzərə alınmalıdır. Bu amillərə həm regionun turizm üçün cəlbediciliyi, həm də maliyyə resurslarının mövcudluğu aid edilir. Turizm sektorunun maliyyələşdirilməsi taktikası və strategiyası məhz bundan başlamalıdır.

Hər bir ölkədə olduğu kimi Azərbaycanda da turizmin inkişafını təmin edən mühüm amillərdən biri onun maliyyələşdirilməsidir. Əvvəla turizmin effektiv maliyyələşdirilməsi müxtəlif turizm şirkətlərinin rəhbərlik səviyyəsində reallaşdıracağı məsələdir. Bu sahədə turizm şirkətləri müxtəlif mənbələrdən maliyyə resurslarının səfərbər edilməsini təmin etməlidir. Turizm fəaliyyətindən əldə olunan mənfəət, səhmdarların qoyduğu kapital, investisiya fəaliyyətindən əldə olunan mənfəət turizm şirkətlərinin öz vəsaitləri hesabına formalaşdırdığı maliyyə resurslarıdır. Təbii ki, bu resurslar kifayət etmədikdə turizm şirkətləri kommersiya banklarından kreditlər götürürlər. Alınan kreditlər turizm sektorunun fəaliyyətinin tənzimlənməsi üçün mühüm maliyyələşmə mənbəyi hesab olunur. Bu səbəbdən iqtisadiyyatın ayrı-ayrı sektorlarının maliyyələşdirilməsində bankların böyük rolu vardır. Bu sektorlardan biri də turizm sektorudur.

Qeyd edək ki, banklar fiziki və hüquqi şəxslərdən depozitlərin və ya digər qaytarılan vəsaitlərin cəlb edilməsi, öz adından və öz hesabına kreditlərin verilməsi, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarını məcmu halda həyata keçirən maliyyə-kredit təşkilatlarıdır [7].

Bankların ən mühüm fəaliyyət sahələrindən biri qeyd olunduğu kimi fiziki şəxslərlə birgə, fəaliyyət sahəsindən asılı olmayaraq müəssisələrin kreditləşdirilməsidir. Odur ki, turizm sektorunun maliyyələşdirilməsində bankların fəaliyyət istiqamətlərinin müxtəlifliyini nəzərə alaraq əvvəlcə bu fəaliyyətə kredit əməliyyatlarını aid edə bilərik. Maliyyə sabitliyinin pozulması, likvidlik problemi və bunun nəticəsində ödəmə qabiliyyətinin olmaması müasir dövrdə turizm fəaliyyətinin effektiv həyata keçirilməsinə mənfi təsir göstərir. Bu baxımdan kommersiya bankları turizm şirkətlərinə kredit vermək yolu ilə bu problemin aradan qaldırılmasına köməklik edirlər.

Turizmin maliyyələşdirilməsində bankların mühüm fəaliyyətlərindən biri depozit əməliyyatlarıdır. Məlum olduğu kimi, banklar fiziki şəxslərlə bərabər müxtəlif müəssisələrə də depozit xidmətləri təklif edir ki, turizm şirkətlərini də bura əlavə etmək olar. Belə ki, banklar əvvəlcə turizm şirkətləri ilə depozit əməliyyatlarına dair müvafiq depozit müqaviləsi bağlayır. Bu müqavilə əsasında depozit hesabı açaraq, turizm şirkətlərindən cəlb etdikləri vəsaiti depozit hesabına mədaxil edir. Banklar depozit müqaviləsinin sonunadək mütəmadi olaraq turizm şirkətlərinə depozit üzrə faiz ödəyir. Bu faiz ödənişləri turizm şirkətləri üçün bir gəlir növü olduğundan əlavə maliyyələşdirilmə mənbəyi sayılır.

Turizmin maliyyələşdirilməsində bankların həyata keçirdiyi əməliyyatlardan biri də lizinq əməliyyatlarıdır. Qeyd edək ki, lizinq özündə bank krediti, icarə, investisiya elementlərini cəmləşdirən münasibətlər kompleksidir [8]. Banklar turizm şirkətlərinə əsas vəsaitlərin kompleks satışını lizinq yolu ilə reallaşdıraraq onları bu yolla maliyyələşdirə bilər. Çünki müasir dövrdə bir sıra turizm şirkətləri tərəfindən turizm fəaliyyətinin həyata keçirilməsi məqsədilə nəqliyyat vasitələrinin, kompyuterlərin, avadanlıqların və digər əsas vəsaitlərin birbaşa alınması məsrəftutumlu ola bilər. Bu səbəbdən turizm şirkətləri qeyd olunan əsas vəsaitlərin alınmasını uzunmüddətə icarəyə götürmək, yəni lizinq yolu ilə həyata keçirə bilər.

Müasir dövrdə turizmin maliyyələşdirilməsində bankların fəaliyyət istiqamətlərindən biri faktorinq əməliyyatları hesab olunur. Qeyd edək ki, faktorinq fəaliyyəti müəssisələrin debitor borclarının maliyyələşdirilməsi məqsədilə alıcılara qarşı pul tələbi hüququnun banka ötürülməsidir. Belə ki, turizm şirkətləri göstərdiyi turizm xidmətlərinə görə yaranmış debitor borclarını əldə etməyə bilər. Təbii ki, uzun müddət ödənilməyən debitor borclarının ümidsiz borca çevrilmə ehtimalı yüksəkdir. Bu zaman banklar debitor borclarının həcminin müəyyən həcmini turizm

şirkətlərinə ödəməklə həm onları maliyyələşdirir, həm də debitor borclarının ümidsiz borca çevrilməsinin qarşısını alır [9].

Turizmin maliyyələşdirilməsində bankların fəaliyyət istiqamətlərindən biri investisiya əməliyyatlarıdır. Qeyd edək ki, banklar müasir dövrdə həm maliyyə həm də real investisiya növü üzrə əməliyyatlar aparmaqdadır. Bu səbəbdən banklar turizm sektoruna investisiya qoymaqla həm onların maliyyələşdirilməsini təmin edə bilər, həm özləri mənfəət əldə edə bilər, həm də bu yolla ölkənin iqtisadi inkişafında rol oynaya bilər.

Müasir bazar iqtisadiyyatı şəraitində turizm sektorunun maliyyələşdirilməsi zamanı bəzi problemlər müşahidə olunur biz bu problemləri aşağıdakı kimi sıralaya bilərik.

1. Banklar tərəfindən turizm şirkətlərinə verilən kreditlər bəzi hallarda tələb olunan həcmdə olmur
2. Verilən kreditlərin müddəti qısa, faizi isə yüksək olur
3. Banklar tərəfindən turizm sektorunun maliyyələşdirilməsi sahəsində məlumatlandırma bəzən lazımi səviyyədə olmur
4. Kreditləşdirmə prosesində bankların aldığı komissiya məbləği yüksək həddə çatır
5. Maliyyə proqnozlaşdırılması ilə bağlı problemlər maliyyələşdirilmədə əsas problemlərdən biridir

Turizm şirkətlərinin maliyyələşdirilməsində kreditləşdirmənin əhəmiyyətini nəzərə alaraq, bir nüansı qeyd etmək lazımdır ki, turizm şirkətlərinin dövlətin təminatı olmadan birbaşa banklardan aldığı kreditlərin faizi yüksək olur. Bir çox hallarda turizm şirkətlərinin biznes krediti adı altında banklardan aldığı bu kreditləri ödəmə qabiliyyəti olmur. Çünki kreditin həcmi yüksək, müddəti qısa və faizi də adətən yüksək olur. Bu səbəbdən turizmin maliyyələşdirilməsində dövlət dəstəyi mühüm əhəmiyyət kəsb edən amillərdən biri hesab olunur.

Bildiyimiz kimi sahibkarlığın inkişaf etdirilməsi dövlətin hədəflədiyi ən prioritet məsələlərdən biridir. Bu səbəbdən Azərbaycanda sahibkarlıq fəaliyyətinin davamlı surətdə inkişafı dövlətin iqtisadi siyasətinin mühüm tərkib hissələrindən biri sayılır. Bu sahədə dövlət tərəfindən davamlı olaraq dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, inzibati proseslərin təkmilləşdirilməsi, qanunsuz müdaxilələrin və müxtəlif problemlərin aradan qaldırılması, sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin formalaşdırılması, maarifləndirmə və müxtəlif növ xidmətlərin göstərilməsi sahələrini əhatə edən kompleks tədbirlər həyata keçirilmişdir.

Görülən bu tədbirlər nəticəsində Azərbaycan Respublikasında sahibkarlar təbəqəsi formalaşmış, iqtisadi inkişafda özəl sektorun rolu önəmli səviyyədə yüksəlmiş, iqtisadiyyatın müxtəlif sahələrində sahibkarlıq üçün əlverişli şərait yaranmış, qanunvericilik qaydaları təkmilləşmiş, maliyyə-kredit təminatı yüksəlmiş, sahibkarların vergi yükü azalmış, onların hüquqlarının müdafiəsi sistemi təkmilləşmiş, iş adamlarının beynəlxalq əlaqələri genişlənmiş və digər uğurlar əldə olunmuşdur [5].

Turizmin maliyyələşdirilməsində bankların rolu nə qədər yüksək hesab edilsə də, bu məsələnin dövlət dəstəyi altında təmin edilməsi daha etibarlıdır. Çünki bir çox sahələrlə yanaşı turizm də inkişaf etdirilməsi vacib olan sahələrdən biridir. Bu səbəbdən dövlət turizm sektorunun inkişafının təmin edilməsi adı altında banklara tapşırıq verməlidir ki, onlar turizm şirkətlərinin fəaliyyətinin tənzimlənməsi məqsədilə lazımi kreditləri vaxtında uzun müddətə və aşağı faizlə verilməsini təmin etsinlər. Qeyd edək ki, maliyyə resurslarının tərkibi və strukturu turizm sektorunun effektiv maliyyələşdirilməsinə mane olan səbəblərdəndir. Maliyyə resurslarının tərkibi turizm sektorunun iştirakçıları arasında pul və borc axınının əlamətlərindən asılıdır. Qeyd edək ki, müasir dövrdə turizm sektorunun inkişafına bir sıra maneələr və problemlər təsir göstərir ki, bunlardan ən başlıcası bu sektorun maliyyələşdirilməsi ilə bağlıdır.

Turizm sektorunun maliyyələşdirilməsində bankların kifayət qədər fəaliyyət isitqamətlərini qeyd etdik. Lakin unudulmamalıdır ki, bu hədəfin reallaşdırılmasında dövlətin də böyük rolu vardır. Bu baxımdan turizm sektorunun maliyyələşdirilməsi son dərəcə mühüm əhəmiyyət kəsb edən məsələdir.

Nəticə

Azərbaycan ötən dövrlərdən fərqli olaraq, hazırda günü-gündən iqtisadi cəhətdən inkişaf etməkdədir. Təbii ki, bu inkişaf müxtəlif iqtisadi sektorlara da öz təsirini göstərməkdədir. Hazırda ölkənin ən prioritet və cəlbedici sahələrindən biri turizmdir. Ölkənin əlverişli coğrafi məkanda yerləşməsi, zəngin mədəniyyəti, əhalinin qonaqpərvərliyi turizm sektorunun inkişaf etmiş bir sferaya çevrilməsinə səbəb olmuşdur. Qeyd etmək lazımdır ki, Azərbaycanda qeyri-neft sektoru içərisində turizmin özünəməxsus yeri vardır. Müəyyən problemlərin hökm sürməsinə baxmayaraq, bu sektorun inkişaf potensialı çox yüksək hesab olunur. Bu səbəbdən turizmin inkişafını reallaşdırmaq və davamlılığını təmin etmək üçün bir sıra tədbirlərin görülməsi vacibdir.

Bu tədbirlərdən biri də turizm sektorunun effektiv maliyyələşdirilməsidir. Turizmin maliyyələşdirilməsi məsələsi əvvəla turizm şirkətlərinin rəhbərliyi səviyyəsində müstəqil həll edilməlidir. Burada bir neçə sual ortaya çıxır. Mövcud maliyyə resursları hansı səviyyədədir? Hansı maliyyə resursları cəlb olunacaq? Maliyyə resursları hansı mənbələrdən cəlb olunacaq? Təbii ki, bu suallara cavab tapmaq üçün turizm şirkətləri öz mövcud maliyyə potensialını qiymətləndirməli, ehtiyac duyularsa yeni maliyyə mənbələrinə baş vurmalıdır.

İnkişaf etmiş dünya təcrübəsi göstərir ki, iqtisadiyyatın bütün sektorlarında inkişafın təmin edilməsi üçün əsas amillərdən biri maliyyələşdirilmədir. İqtisadiyyatın digər sektorlarında olduğu kimi turizm sektorunun düzgün idarə olunması və davamlı fəaliyyət göstərməyinin əsasında məhz onun effektiv maliyyələşdirilməsi dayanır.

Qeyd edək ki, bir sıra ölkələr turizm sektorunun inkişafını təmin etməkdə uğurlu olmamışdır. Bu problem bir çox hallarda turizm sektorunun qeyri effektiv maliyyələşdirilməsindən qaynaqlanır. Turizm sektorunun maliyyələşdirilməsi o sektorun inkişafının təmin edilməsi məqsədilə maliyyə resurslarının vaxtında və tam şəkildə səfərbər edilməsini əks etdirir.

Müasir bazar iqtisadiyyatı şəraitində turizm sektorunun maliyyələşdirilməsində bankların böyük əhəmiyyəti vardır. Turizm sektorunun maliyyələşdirilməsində biz bank sektorunun müxtəlif fəaliyyət istiqamətlərini göstərmişdik. Bu fəaliyyət istiqamətlərindən biri kreditləşdirilmə ilə bağlıdır. Banklar turizm sektorunu ehtiyac duyulan məbləğdə kreditləşdirməklə onun maliyyələşdirilməsini təmin edə bilər.

Bundan əlavə bankların depozit əməliyyatlarını da mühüm fəaliyyət istiqaməti kimi vurğulamaq olar. Turizm şirkətləri banklara depozit qoymaqla depozit faizindən gəlir əldə edə bilər ki, bu da mühüm maliyyələşdirilmə vasitəsi hesab olunur. Digər tərəfdən banklar lizinq fəaliyyətini həyata keçirməklə əsas vəsaitlərin uzunmüddətli icarə yolu ilə turizm şirkətlərinə satışını həyata keçirə bilər ki, bu da maliyyələşdirilmədə əsas vasitələrdən biri sayılır.

Müasir dövrdə turizmin maliyyələşdirilməsində bankların fəaliyyət istiqamətlərindən biri olaraq faktorinq əməliyyatlarını göstərə bilərik. Bu yolla turizm şirkətlərinin debitor borcları banklar vasitəsilə ödənilir. Banklar isə öz növbəsində debitor borcları üzrə borclu tərəf qarşısında ödənişə görə iddia qaldırır. Əsas maliyyələşdirilmə vasitəsi olaraq bankların investisiya fəaliyyətini də göstərə bilərik. Belə ki, banklar turizm sektoruna investisiya qoyaraq bu sektorun həm maliyyələşdirilməsini həm də inkişafını təmin edə bilər.

Qeyd olunan hər bir istiqamət turizm sektorunun maliyyələşdirilməsində bankların mühüm istiqamətləri hesab olunur. Bu baxımdan bu istiqamətlər üzrə həyata keçirilən hər bir fəaliyyət turizmin maliyyələşdirilməsində əhəmiyyətli rol oynayır.

Ədəbiyyat

1. Ataşov B. Müəssisələrin maliyyəsi / B.Ataşov, N. Novruzov, E. İbrahimov, [və b]. - , Bakı: 2009. - 339 s.
2. Əlirzayev Ə.Q. Turizmin iqtisadiyyatı və idarə edilməsi / Ə.Q.Əlirzayev. – Bakı: 2011. - 494 s.
3. Hüseynov İ.H. Turizmin əsasları / İ.H.Hüseynov, N.T.Əfəndiyeva. – Bakı: 2007. - 442 s.
4. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi: [elektron resurs].- Bakı, 17 dekabr, 2016-cı il. - https://president.az/az/articles/view/22134
5. Azərbaycan Respublikasında sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikasının Prezidentinin Fərmanı: [elektron resurs].- Bakı, 30 aprel 2007-ci il. - https://e-qanun.az/framework/12975

6. Turizmin inkişaf etdirilməsi prioritet məsələlərdəndir: http://www.anl.az/down/meqale/azerbaycan/2013/dekabr/340586.html
7. Bankların mahiyyəti və əhəmiyyəti: https://az.wikipedia.org/wiki/Bank
8. Lizinq nədir?: https://banker.az/lizinq-nədir/
9. Faktorinq nədir?: https://www.pashabank.az/corporate_factoring_faq,1191/lang,az/

Məqalənin redaksiyaya daxilolma tarixi: 24.03.2025
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 01.04.2025
Məqalənin çapa qəbul olunma tarixi: 07.04. 2025